**«Razılaşdırılmışdır»**

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Sığorta Nəzarəti Xidmətinin rəisi

N. Xəlilov

**«12» noyabr 2015-ci il**

**«Təsdiq edirəm»**

«Atəşgah» Sığorta Şirkəti ASC-nin İdarə heyətinin sədri

T.A. Səfərov

**«21» oktyabr 2015-ci il**

# Kənd təsərrüfatı bitkilərinin sığortası Qaydaları

**Bakı 2015**

## Ümumi anlayışlar

Əgər qaydaların məzmununda başqa cür nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunan termin və ifadələr aşağıdakı mənaları daşıyır:

Sığortalı - sığorta haqqı ödəyən, sığorta obyektinin sığorta etdirilməsində sığorta marağı olan sığorta müqaviləsinin tərəfi.

Sığortaçı - sığorta fəaliyyətini həyata keçirmək üçün müvafiq lisenziyaya malik olan, sığorta müqaviləsində nəzərdə tutulan sığorta hadisəsi baş verdiyi halda qanunvericiliklə və ya müqavilə ilə müəyyən olunmuş qaydada sığorta ödənişini vermək öhdəliyi daşıyan sığorta müqaviləsinin tərəfi olan yerli hüquqi şəxs;

Faydalanan şəxslər - sığorta müqaviləsinə uyğun olaraq sığorta ödənişini almaq hüququ olan şəxs;

Aktuari - qanunvericiliyə uyğun olaraq iqtisadi-riyazi hesablamalar aparmaqla sığorta haqlarının hesablanmasının əsaslarını müəyyən edən, həmçinin sığorta ehtiyatlarını hesablayan mütəxəssis;

Sığorta hadisəsi - qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin sığortalıya və ya digər faydalanan şəxslərə ödənilməsi üçün əsas olan, sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hadisə və ya yaranan hal;

Sığorta məbləği – sığortalanmış risklər üzrə sığortaçının öhdəliyinin qanunvericilik, yaxud müqavilə ilə müəyyənləşdirilmiş məbləğlə ifadə olunan son həddi;

Sığorta tələbi - sığorta hadisəsi baş verdikdə sığortalının və ya faydalanan şəxsin sığortaçıya öz vəzifələrini qanunvericiliyə və sığorta müqaviləsinə uyğun olaraq icra etməsi barədə müraciəti;

Sığorta ödənişi – sığorta hadisəsi baş verdikdə, qanunvericiliyə, həmçinin sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyası;

Sığorta obyekti – sığortalının qanunazidd olmayan hər hansı əmlak mənafeyi;

Sığorta predmeti – sığorta müqaviləsi üzrə sığortalanan əmlak mənafelərinin aid olduğu əmlak;

Sığorta marağı - Sığorta marağı sığorta hadisəsinin baş verəcəyi təqdirdə sığortalının maliyyə itkisinə məruz qalması ehtimalı ilə şərtlənən və onun sığorta obyektini sığorta etdirmək hüququnun əsaslandığı mənafedir.

Sığorta haqqı – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində sığorta qanunvericiliyinə uyğun olaraq, sığorta müqaviləsində nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləği;

Sığorta riski və ya risk - sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb olan hadisənin baş verməsi və ya halın yaranması ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəlik;

Sığorta tarifi – sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi;

Sığorta müqaviləsi - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən

bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşma;

Sığorta şəhadətnaməsi - sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən, sığortaçı tərəfindən sığortalıya verilən sənəd;

Sığortanın müddəti – sığorta risklərinin sığortalanmış hesab olunduğu müddət;

Azadolma məbləği – Azadolma məbləği, sığorta hadisəsi nəticəsində yaranan itkilərin və ya dəyən zərərin sığorta təminatı ilə əhatə olunmayan və sığortalının üzərində qalan hissəsidir. Azadolma məbləği hər bir halda sığorta müqaviləsinə uyğun olaraq müəyyən edilən sığorta ödənişi məbləğinə tətbiq olunur

Əhəmiyyətli hallar – Sığortaçının müqavilədən imtina etmək və ya onun şərtlərinin müəyyənləşdirilməsi qərarına təsir göstərə bilən hallar əhəmiyyətli sayılır;

Sığortanın ərazisi – sığorta predmetinin sığortalanmış hesab olunduğu müəyyən ərazi hüdudları.

**1. Sığortanın sinfi**
1.1. Bu Qaydalar əsasında həyata keçirilən sığorta sığorta obyektinə görə kənd təsərrüfatı bitkilərinin sığortası sinifinə aiddir.

**2. Sığorta predmeti**
2.1. Bu Qaydalara əsasən Sığortalının əmlak mənafelərinin aid olduğu kənd təsərrüfatı bitkiləri sığortanın predmeti hesab olunur.

2.1.1. Aşağıdakılar sığorta predmeti hesab olunur:
2.1.1.1. birillik və çoxillik kənd təsərrüfatı bitkilərinin məhsulu, o cümlədən şitillərdə, parniklərdə və istixanalarda olan məhsullar;
2.1.1.2. bağların, giləmeyvə sahələrinin, üzümlüklərin və digər çoxillik əkililərin məhsulu;
2.1.1.3. çoxillik əkililərin şitilləri

2.1.2. Aşağıdakılar sığorta predmeti hesab edilmir:
2.1.2.1. ot çalımı və otlaqların məhsulu;
2.1.2.2. bu il məhsul verməyən bu ilki əkinin çoxillik otu;
2.1.2.3. meşə, dekorativ əkililər və onların şitillikləri;

2.1.3. Sığorta müqaviləsi yalnız Sığortalı aşağıda adı çəkilən hər hansı bir əkinin bütün məhsulunu sığortaladığı halda bağlanır:
2.1.3.1. payızlıq bitkilər, yazlıq bitkilərin payızlıq əkini və çoxillik əkilmiş otlar;
2.1.3.2. bar verən yaşda bağlar, giləmeyvə sahələri, üzümlüklər və digər çoxillik əkililər;
2.1.3.3. yazlıq bitkilər: bu bitkilərin təkrar (çəmən) əkini əsas əkililərlə birlikdə sığortalanmalıdır;
2.1.3.4. bu ümumi qaydalarla sığorta oluna bilən oradakı bütün şitillər;
2.1.3.5. onda olan parnik və istixanaların bütün məhsulları. Bu bitkilərlə əhatə olunmuş bütün sahələr sığotalanmalıdır, çoxillik əkililərə aidiyyatda isə – bar verən vəziyyətdə olan əkililərlə əhatə olunmuş bütün sahələr.

**2.2. Sığorta obyekti**
2.2.1. Bu qaydalara əsasən sığorta obyekti, sığorta müqaviləsində göstərilmiş sığorta predmetinə Sığortalının sahibliyi, ondan istifadə etməsi və (vəya) ona sərəncam verməsi ilə bağlı əmlak maraqlarıdır.

**3. Sığorta məbləği**
3.1. Sığorta məbləği sığorta müqaviləsinin bağlanması anı sığortalanan kənd təsərrüfatı bitkilərinin yerləşdiyi yerdə həqiqi dəyərini (sığorta dəyəri) aşmayan məbləğdə müəyyən edilir.
3.2. Həqiqi dəyər cari qiymətlərlə (dövlət, müqavilə, xarici ticarət və digər) kənd təssərüfatı bitkilərinin məhsulunun tam dəyəri kimi müəyyən edilir. Adətən həqiqi dəyər son beş ilin orta məhsulunun dəyərinə

bərabər olmalıdır. Son beş il ərzində bitkinin əkini haqqında məlumatın olmadığı təqdirdə əsas kimi daha az illər üçün məhsul haqqında məlumatlar və ya bu bitki haqqında həmin yerdə digər təsərrüfatlarda olan məlumatlar və ya məhsuldarılığın hesablanmış göstəriciləri götürülür.
3.3. Sığorta müqaviləsində (şəhadətnamədə) sığorta məbləği hər bir sığortalanan bitki və ya ümumi məhsul üzrə müəyyən olunur.

**4. Sığorta təminatı və istisnalar.**
4.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsi üzrə Sığortaçı Sığortalıya aşağıdakı risklər nəticəsində baş vermiş sığorta hadisəsi üzrə sığorta təminatı verir:
4.1.1. dolu;
4.1.2. yanğın və ya ildırım çaxması;
4.1.3. boran, qasırğa, burulğan, tornado və ya qumlu boran;
4.1.4. quraqlıq, istiliyin çatışmaması, həddən artıq nəmişlik, yaşlanma, kiflənmə, donma, şaxta və eləcə də bu yerə xas olmayan yerli hava şəraiti;
4.1.5. susuzluq və suvarma mənbələrində suyun azlığı;
4.1.6. bitkilərin xəstəliyi və ya onlara ziyanvericilər tərəfindən zərər vurulması;
4.1.7. uçan idarəolunan obyeklərin və ya onların hissələrinin yerə düşməsi;
4.1.8. zəlzələ, vulkanik fəaliyyət, sürüşmə, uçqun və ya torpaq çökməsinin səbəb olmadığı daşqın və ya sel;
4.1.9. bu bənddə sadalanmış təbii fəlakət nəticəsində baş vermiş zəlzələ, sürüşmə, uçqun, vulkanik fəaliyyət, yeraltı alovun təsiri,
4.1.10. vəhşi heyvanlar tərəfindən əkinin zədələnməsi.

4.2. Sığorta təminatı yuxarıda adı çəkilən və yalnız sığorta müqaviləsində (şəhadətnaməsində) göstərilən risklərə aid edilir.
4.3. Tərəflərin razılığı ilə risklərin siyahısına əlavələr edilə bilər. Dəyişikliklər və əlavələr sığorta müqaviləsində (şəhadətnaməsində) öz əksini tapmalıdır.

**4.4. İstisnalar**
4.4.1. Bu cür müharibənin elan olunub olunmamasından asılı olmayaraq, müharibə və ya hər hansı hərbi əməliyyatlar, vətəndaş müharibəsi, müdaxilə və onun nəticələri;
4.4.2. üsyan, qiyam, inqilab, hakimiyyətin ələ keçirilməsi;
4.4.3. iğtişaşlar, tətil və ya lokaut;
4.4.4. Səlahiyyətli orqanların sərəncamı ilə sığorta predmetlərinin müsadirəsi, həbsi, dağıdılması və ya korlanması;
4.4.5. atom və ya nüvə enerjisinin hər hansı bir formada istifadəsi nəticəsində;
4.4.6. bu zərərin nə vaxt müəyyən olunmasından asılı olmayaraq sığorta müddəti başlamazdan əvvəl dəyən hər hansı bir zərər;
4.4.7. məhsulun oğurlanması;
4.4.8. şum, kultivasiya, məhsul yığımı, suvarma və əkinlərin digər üsullarla emal olunması zamanı bitkilərə dəyən mexaniki zədələr;
4.4.9. toxumların səhv səpilməsi, sahələrin və əkinlərin insektisidlərlə, defoliantlarla və ya digər zəhərli kimyəvi maddələrlə işlənməsi və eləcə də həddən artıq gübrələrin verilməsi.

**5. Sığorta müqaviləsi**
**5.1. Sığorta müqaviləsinin bağlanması**
5.1.1. Sığorta müqaviləsinin bağlanması üçün Sığortalı Sığortaçının Ərizə formasını doldurur.
5.1.2. Sığorta müqaviləsinin bağlanması faktı sığorta qaydaları əlavə edilməklə, Sığortalıya verilən sığorta şəhadətnaməsi ilə təsdiq edilir.
5.1.3. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi, müqavilədə göstərilən başlama və sona çatma tarixlərində saat $24^{00}$-da qüvvəyə minir və qüvvədən düşür.
5.1.4. Sığorta yalnız sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən sığorta hadisələrini əhatə edir.
5.1.5. Sığorta müqaviləsi kənd təssərüfatı mallarının işlənməsinin bir fəslinə və ya tərəflərin razılığı ilə sığorta müqaviləsində verilən başqa bir müddətə (sığorta müddəti) bağlanır. Sığorta olunmuş bitkilərin bir

müddət (fəsil) ərzində təkrar əkini, Sığortaçı ilə razılaşdırılmış hallar istina olmaqla, sığortalanmır və həmin bitkələrə dəyən zərər sığortaçı tərəfindən ödənilmir.
5.1.6. Sığorta müqaviləsi hüquqi qüvvəyə mindikdən sonra Sığortaçı aşağıdakı kimi məsuliyyət daşıyır:
5.1.6.1. Əkin günündən başlayaraq – birillik və çoxillik toxum və əkin bitkilərinə aid, o cümlədən, bu bitkilərin payızlıq əkinləri, və eləcə də bu il məhsul verən çoxillik əkilmiş bitkilər;
5.1.6.2. Qışlamaya getmə günü ilə əlaqədar (vegetasiyanın sona çatması) - çoxillik bitkilər, o cümlədən gələn ilin məhsulu üçün əkilmiş çoxillik bitkilər;
5.1.6.3. Qışlamaya getmə günü ilə əlaqədar (vegetasiyanın sona çatması) - çoxillik meyvə-giləmeyvə ilə aidiyyatda və bar verən vəziyyətdə olan digər əkililər və belə bar verən vəziyyətə daxil olan əkililər üzrə - bar verən vəziyyətdən əvvəlki il qışlamaya getmə günü ilə əlaqəli (vegetasiyanın sona çatması)
5.1.6.4. Əkin günündən – tinglər və əkililər ilə əlaqədar.

**5.2. Sığorta müqaviləsinin tərəfləri**
**5.2.1. Sığortaçı**.
5.2.1.1. Sığortaçı - bu Qaydalara əsasən sığortaçı dedikdə «Atəşgah» Sığorta şirkəti ASC başa düşülür.
**5.2.2. Sığortalı**
5.2.2.1. Bu Qaydalara əsasən Sığortalı sığorta predmetinə münasibətdə əmlak maraqları olan hər hansı bir fiziki və ya hüquqi şəxs hesab olunur.
5.2.2.2. Bu Qaydalar daxilində Sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, «Sığorta fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa, sığorta müqaviləsinə, vəkalətnaməyə (etibarnaməyə) və ya vəzifə öhdəliklərinə əsasən Sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

**5.2.3. Faydalanan şəxs**
5.2.3.1. Sığorta müqaviləsi sığorta predmetinin qorunmasında maraqlı olan hər hansı başqa şəxsin – Faydalanan şəxsin xeyrinə də bağlana bilər.
5.2.3.2. Faydalanan şəxsin adı sığorta müqaviləsində göstərilməlidir.
5.2.3.3. Sığorta müqaviləsinin Faydalanan şəxsin xeyrinə bağlanması Sığortalını müqaviləyə əsasən vəzifə və öhdəliklərindən azad etmir.
5.2.3.4. Bu Qaydalar və sığorta müqaviləsi ilə Sığortalıya aid edilən bütün müddəalar sığortadan faydalanmaq niyyətində olan Faydalanan şəxsə də eyni həcmdə aid edilir.

**6. Sığorta haqqı**
6.1. Sığorta haqqı sığorta tariflərinə əsasən hesablanır.
6.2. Sığorta haqqı bir dəfəyə ödənilir və ya tərəflərin razılğına əsasən hissə-hissə ödənilə bilər.
6.3. Sığorta haqqının ödənildiyi gün, pul vəsaitinin Sığortaçının bank hesabına və ya kassasına daxil olduğu gün hesab olunur.
6.4. Müqavilədə başqa cür nəzərdə tutulmamışdırsa, sığorta müqaviləsi sığorta haqqının ilk hissəsinin və ya tam ödənildiyi gün saat 24:00-da, lakin şəhadətnamədə göstərilmiş sığorta müddətinin başlanma tarixindən tez olamayaraq qüvvəyə minir.
6.5. Sığorta haqqı və ya onun növbəti hissəsi sığorta müqaviləsində nəzərdə tutulmuş müddətədək ödənilmədikdə və ya sığorta müqaviləsində nəzərdə tutulduğundan daha az məbləğdə ödənildikdə:
6.5.1 Bu halda sığortaçı onun ödənilməsi üçün bu qaydaların 6.5.2.-cı maddəsinin tələbini nəzərə alaraq, yazılı surətdə 15 (on beş) günədək əlavə müddət müəyyən edə bilər.
6.5.2. Hər bir halda sığorta haqqı və ya onun razılaşdırılmış ilk hissəsi sığorta müqaviləsi bağlandığı gündən 1 (bir) aydan gec olmayaraq ödənilməlidir.
6.6. Sığortalı sığorta haqqını və ya onun növbəti hissəsini sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə ödəmədikdə, Sığortaçı sığorta müqaviləsinə xitam verə bilər və ya birtərəfli qaydada müqavilənin icrasından imtina edə bilər.

**7. Sığortanın ərazisi**
7.1. Bu sığorta, sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, Azərbaycan Respublikasının ərazisində qüvvədədir.

7.2. Əgər sığorta müqaviləsində sığortanın ərazisi göstərilmişdirsə, yalnız həmin ərazidə baş verən sığorta hadisələrinə sığorta təminatı verilir.

**8. Azadolma məbləği**

8.1. Sığorta müqaviləsində şərtli və ya şərtsiz azadolma məbləği, Sığortalı ilə Sığortaçı arasındakı razılığa əsasən, müəyyən oluna bilər

8.2. Sığorta təminatı üzrə azadolma məbləği hər bir sığorta riski və hər bir sığorta hadisəsi üzrə tətbiq olunur.

8.3. Şərtli azadolma məbləğinin nəzərdə tutulması halında, sığorta hadisəsi nəticəsində dəyən zərərin həcmi həmin məbləğdən çox olduqda, zərər məbləğindən azadolma məbləği çıxılmır.

8.4. Şərtsiz azadolma məbləği nəzərdə tutulduqda, həmin məbləğ hər bir halda zərər məbləğindən çıxılır.

**9. Sığorta müqaviləsinə əlavə və dəyişikliklərin edilməsi**

9.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı və sığortaçı, faydagötürənin yazılı razılığı ilə müqavilənin müəyyən şərtlərinin dəyişdirilməsi, həmçinin ona müəyyən əlavələr edilməsi barədə razılığa gələ bilərlər.

**10. Sığorta müqaviləsinə xitam verilməsi**

10.1. Sığorta müqaviləsinə aşağıdakı hallarda xitam verilir:

10.1.1. Müqavilənin müddəti bitdikdə, lakin məhsulun yığılma anından gec olmayaraq, yəni məhz o gün ki:

10.1.1.1.taxıl döyümü ilə əlaqəli olan dənli, dənli-paxlalı və digər bitkilər döyülmüş və tayaya yığılmışdır;

10.1.1.2.yalnız lif və ya lub almaq üçün yetişdirilən lifli bitkilər (çətənə, kənaf və s.) - yaşıl təzə yığılmış vəziyyətdə işlənmişdir və ya təhvil verilmə yerinə və ya ilkin emal yerinə çıxarılmışdır;

10.1.1.3.tütün və ya maxorka yığımı – tarladan çıxarılmış və ilkin emaldan sonra kisələrə qablaşdırılmışdır;

10.1.1.4.tərəvəz və bağ bitkilərinin məhsulu, giləmeyvələr, üzümlüklər, çay sahələri, dəfnə ağası, mayaotu, kaqanlın qızılgülü, lavanda, kartof, şəkər çuğunduru, köklu yem bitkiləri, pambıq – saxlama, emal, satış və ya nəqliyyat şirkətlərinə təhvil verilmək üçün aparılmış, köklü bitkilərin tarlada saxlanıldıqda- dərələrə, çalalara, səngərlərə yığılmışdır;

10.1.1.5.biçilən otların quru otu – tarladan çıxarılıb və tayalanıb;

10.1.1.6.silos bitkilərinin yaşıl məhsulu– silos çalalarına, güllərə və səngərlərə qoyulmuşdur.

10.1.2. Müqavilənin müddəti bitdikdə;

10.1.3. Sığortaçı müqavilə üzrə Sığortalı qarşısında öhdəliklərini tam həcmdə icra etdikdə;

10.1.4. Sığortalı sığorta haqqlarını müqavilə ilə müəyyən olunmuş müddətdə ödəmədikdə;

10.1.5. Sığortaçı, Azərbaycan Respublikasının qanunvericilik aktları əsasında ləğv edildikdə;

10.1.6. Sığorta müqaviləsinin etibarsız hesab olunması haqqında məhkəmə tərəfindən qərar qəbul edildikdə;

10.1.7. Sığorta marağı artıq mövcud olmadıqda;

10.1.8. Sığorta predmeti artıq mövcud olmadıqda.

10.1.9. Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulan digər hallarda.

10.1.10. Sığorta müqaviləsinə Sığortalının və ya Sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilə bilər. Bu barədə tərəflər bir-birini, qanunla müəyyən edilən hallar istisna olmaqla, azı 30 (otuz) gün əvvəl yazılı surətdə xəbərdar etməlidirlər.

**11. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam vermənin nəticələri**

11.1. Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığorta qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır.

11.2. Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığorta haqlarını bütünlüklə sığortalıya qaytarır; əgər bu tələb sığortalının sığorta müqaviləsi üzrə vəzifələrini yerinə

yetirməməsi ilə bağlıdırsa, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərcləri çıxılmaqla, müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır.
11.3. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqına bərabər və ya ondan çox miqdarda sığorta ödənişi verilmişdirsə, sığorta haqqı sığortalıya qaytarılmır.
11.4. Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildiyi halda, əgər xitam verilmə anınadək sığortaçı tərəfindən sığortalıya ödənilmiş sığorta haqqından az miqdarda sığorta ödənişi verilmişdirsə, həmin sığorta haqqı məbləği ilə sığorta ödənişi məbləği arasındakı fərq miqdarında sığorta haqqının sığortalıya qaytarılması müvafiq olaraq bu maddənin 11.1-ci və 11.2-ci bəndlərində nəzərdə tutulmuş qaydada həyata keçirilir.
11.5. Sığorta müqaviləsi məhkəmə qərarı əsasında (sığortalı məhkəmənin qərarı ilə fəaliyyət qabiliyyəti olmayan hesab edilmişdirsə, yaxud onun fəaliyyət qabiliyyəti məhkəmənin qərarı ilə məhdudlaşdırılmışdırsa) xitam verilmiş hesab edildikdə, sığortaçı həmin müqavilə üzrə işlərin aparılması xərclərini çıxmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını, bu maddənin 11.3-cü və 11.4-cü bəndlərinin tələbləri nəzərə alınmaqla, sığortalının qanuni nümayəndəsinə qaytarır.

**12. Tərəflərin hüquq və vəzifələri**:
**12.1. Sığortalı:**
12.1.1. sığorta haqqını vaxtında ödəməli;
12.1.2. sığortalanmış predmetə dair qüvvədə olan digər sığorta müqavilələri barədə sığortaçıya məlumat verməli;
12.1.3. sığorta hadisəsi baş verdikdə, bu barədə Qaydaların 15.1-ci bəndində müəyyən edilmiş müddətdə sığortaçını xəbərdar etməli;
12.1.4. ziyanın qarşısının alınması və azaldılması üçün tədbirlər görməli;
12.1.5. sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman Sığortaçı tərəfindən Sığortalıya təqdim olunur. Sığortalı öz növbəsində sorğu formasındakı sualları dürüst və düzgün şəkildə cavablandırmalı və sığorta müqaviləsi qüvvədə olan müddətdə riskin dərəcəsi dəyişilərsə bu barədə sığortaçıya məlumat verməli;
12.1.6. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələr.
**12.2. Sığortaçı:**
12.2.1. sığortalını sığorta qaydaları ilə tanış etməli;
12.2.2. sığorta ödənişini bu Qaydaların 18.1-ci bəndində müəyyən edilmiş müddətdə verməli;
12.2.3. sığortalı və onun əmlak vəziyyəti barədə məlumatı, o cümlədən kommersiya sirri olan məlumatı yaymamalıdır;
12.2.4. sığortalanan predmetə baxış keçirmək, fiziki xüsusiyyətlərini müxtəlif vasitələrlə təyin etməklə, lazım gəldikdə isə onun həqiqi dəyərini müəyyən etmək məqsədi ilə sığorta qanunvericiliyinin tələblərini nəzərə almaqla müstəqil ekspert təyin etmək;
12.2.5. Sığorta hadisəsi ilə bağlı zəruri sənədlərin təqdim edilməsini Sığortalıdan tələb edir;
12.2.6. mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hüquq və vəzifələr.
12.3. sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman Sığortalıya təqdim etməli. Əhəmiyyətli hal haqqında ərizə formasında yanlış məlumatlar olduğu sonradan aşkarlanarsa, Sığortaçı müqaviləyə xitam verə bilər.

**13. Sığorta riskindəki dəyişikliklər**
13.1. Sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən risklər barədə sorğu forması sığorta müqaviləsi bağlandığı zaman Sığortaçı tərəfindən Sığortalıya təqdim olunur. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində, Sığortalı, sığorta müqaviləsi bağlanan zaman Sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə bilən və ona məlum olan bütün digər hallar barədə Sığortaçıya dərhal məlumat verməlidir.
13.2. Sığortaçı sığorta riskinin artmasına təsir edən hallar barədə məlumatı əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:
13.2.1. sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək,
13.2.2. əlavə sığorta haqqının ödənilməsini tələb etmək və ya
13.2.3. belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsini ləğv etmək.

**14. Təhlükəsizlik normalarının pozulması**

14.1. Əgər Sığortalı qanunvericiliklə və digər normativ aktlarla müəyyən olunmuş yanğına qarşı təhzlükəsizlik qayda və normalarını, işlərin təhlükəsiz aprarılmasını, bu yerdə qəbul edilmiş aqrotexniki qaydaları və ya analoji normaları pozursa və əgər bu pozuntular Sığortalının xəbəri olduğu halda baş verirsə, belə hallar risk dərəcəsinin artmasına səbəb olan hallar kimi başa düşülür.

14.2. Bunların baş verməsinin birbaşa səbəbi təhlükəsizlik normalarının pozulması olduqda, Sığortaçı sığorta hadisələri üzrə ödəniş verməkdən imtina edə bilər. Sığorta ödənişi yalnız o halda verilir ki, bu normaların pozulması sığorta hadisəsinin baş verməsi səbəbi ilə bağlı olmasın

**15. Sığorta hadisəsi baş verdikdə sığortalının vəzifələri və sığortaçı tərəfindən nəzarət**

15.1. Sığorta hadisəsinin baş verməsini Sığortalı dərhal sonra və ya mümkün olan ən qısa müddət ərzində sığortaçıya və ya onun nümayəndəsinə yazılı qaydada bildirir.

15.2. Sığorta ilə əhatə olunmasından asılı olmayaraq, Sığortalı artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətin azaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədi ilə bütün ağlabatan və zəruri tədbirləri görməyə borcludur.

15.3. Sığortalının belə tədbirləri həyata keçirməməsi ilə əlaqədar birbaşa və ya dolayı nəticəsi olaraq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir.

15.4. Belə tədbirlərin görülməsi zamanı Sığortalı Sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir.

15.5. Zərərlərin qarşısını almaq və ya həcmini azaltmaq üçün Sığortalı mümkün tədbirləri görmədikdə belə tədbirlərin görülməməsi nəticəsində zərər məbləğində baş verən artım Sığortaçı tərəfindən ödənilməyə bilər.

15.6. Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar Sığortalının bütün hərəkətləri üzərində nəzarət etməli və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır.

15.7. Sığortalı Sığortaçının tələbi ilə ona imkan dairəsində kömək etməlidir. Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda Sığortaçı öz hesabına Sığortalının maraqlarını təmsil və müdafiə etmək hüququna malikdir. Sığortalı Sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət edə, saziş bağlaya və ya vəd verə bilməz.

**16. Sığorta hadisəsinin sübut edilməsi**

16.1. Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu zərərin məbləğini sübut etmək vəzifəsi Sığortalının üzərinə düşür və Sığortalı qanunvericilik və formalaşmış təcrübə ilə tələb olunan sənədlər də daxil olmaqla Sığortaçını bütün zəruri sənədlərlə təmin etməlidir.

16.2. Sığorta ödənişinin verilməsi üçün tələb olunan sənədlər aşağıdakılardır:

16.2.1. sığortalının və ya faydalanan şəxsin sığorta müqaviləsində nəzərdə tutulmuş müddətdə sığortaçıya ünvanladığı sığorta tələbi (ərizə, müraciət);

16.2.2. sığorta hadisəsi hesab edilə bilən hadisə ilə bağlı qanunvericiliyə uyğun olaraq, hər hansı dövlət orqanına məlumat verilməlidirsə, həmin orqanın hadisə barədə təqdim etdiyi müvafiq sənəd;

16.2.3. dəymiş zərərin həcminin müəyyənləşdirilməsi üçün lazım olan sənədlər;

16.2.4. sığorta hadisəsinin baş verməsini təsdiq edən digər zəruri sənədlər.

16.3. Müqavilədə başqa hal nəzərdə tutulmayıbsa, bu minimal zəruri olan sənədlərin toplusudur. Sığortaçı zərurət yarandıqda sığortalıdan sığorta hadisəsinin baş verməsi səbəblərini və faktını, həmçinin dəyən zərərin həcminin müəyyən edilməsi üçün zəruri olan digər sənədlərin təqdim edilməsini tələb etməyə haqlıdır.

**17. Zərərin qiymətləndirilməsi**

17.1. Sığorta hadisəsi nəticəsində dəymiş zərərin miqdarını sığortalının və ya faydalanan şəxsin, yaxud onların nümayəndəsinin təqdim etdiyi sığorta tələbi əsasında sığortaçı müəyyən edir.

17.2. Sığorta hadisəsi nəticəsində dəyən zərərin sığortaçı tərəfindən qiymətləndirilməsi, habelə miqdarı barədə tərəflər arasında razılıq əldə edilmədikdə, zərərin miqdarının qiymətləndirilməsi sığorta qanunvericiliyinin tələbləri nəzərə alınmaqla, təyin olunan müstəqil ekspert tərəfindən aparılır.

17.3. Sığorta hadisəsinin araşdırılması və zərərin qiymətləndirilməsi üçün təyin olunan müstəqil ekspertlər və sığorta sahəsində yardımçı fəaliyyət göstərən şəxslər bununla bağlı sığortaçının malik olduğu bütün hüquqlardan istifadə edə bilərlər.

**18. Sığorta ödənişi**
18.1. Sığortaçı bu Qaydaların 16.2-ci maddəsində qeyd olunan sənədlərin sonuncusunu aldıqdan sonra (sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa) 15 (on beş) iş günü müddətində sığorta ödənişini həyata keçirir və ya yazılı şəkildə əsaslandırmaqla ödənişdən imtina edir.
18.2. Sığorta ödənişi məhsulun qalığının satışından alınmış gəlir və sığorta məbləği arasında olan faktiki fərq kimi müəyyən olunaraq ödənilir. Sığorta ödənişinin son hissəsi sığortalanmış məhsulun yığımının başa çatmasından sonra ödənilir.
18.3. Lakin Sığortalı məhv olmuş bitkilərin yenidən əkilməsi üçün və ya ziyanın qarşısını almaq və ya onu azaltmaq üçün tədbirlər görmək məqsədilə ödənişin avans şəkildə ödənilməsini tələb edə bilər.
18.4. Sığortalı sığortalanmış kənd təsərrüfatı bitkilərinin və ya yan məhsulların sığorta hadisəsindən sonra qalan qalığından imtina etməməlidir.
18.5. Əgər Sığortalı və ya Faydagötürən ziyanın ödənilməsini üçüncü şəxslərdən almışdırsa, Sığortaçı sığorta müqaviləsi ilə nəzərdə tutulmuş ödəniş məbləği ilə üçüncü şəxslərdən alınmış məbləğ arasında olan fərqi ödəyir. Sığortalı dərhal Sığortaçını bu məbləğin alınması barədə məlumatlandırmalıdır.

**19. Sığorta ödənişindən sığorta haqqının tutulması**
19.1. Sığorta ödənişinin ödənilməsi zamanı sığortaçı sığorta ödənişi məbləğindən sığortalının ona ödəməli olduğu, vaxtı çatmış və ya gecikdirilmiş sığorta haqqı məbləğini tutmaq hüququna malikdir.

**20. Sığorta məbləğinin sığorta ödənişinə uyğun olaraq azalması**
20.1. Sığorta müqaviləsində müəyyən edilmiş sığorta məbləği həmin müqavilə üzrə verilmiş sığorta ödənişi həcmində azalmış hesab olunur. Sığorta qanunvericiliyində başqa hal nəzərdə tutulmamışdırsa, bu zaman sığorta müqaviləsinə sığorta məbləğinin azalması ilə bağlı dəyişiklik etmək vacib deyil.

**21. Sığorta ödənişinin verilməsindən imtinanın əsasları**
21.1. Sığortaçı sığorta ödənişinin verilməsindən aşağıdakı hallarda imtina edir:
21.1.1. sığorta hadisəsi barəsində məlumatın sığortaçıya vaxtında verilməməsi nəticəsində sığortaçının hadisənin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması ilə əlaqədar olaraq onun mənafeləri əhəmiyyətli dərəcədə pozulduqda,
21.1.2. sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi nəticəsində sığortaçının sığorta riskini qiymətləndirmək, həmçinin sığorta hadisəsinin səbəblərini və (və ya) dəyən zərərin həcmini müəyyənləşdirmək imkanından tam və ya qismən məhrum olması;
21.1.3. baş vermiş hadisənin qanunvericiliyə və ya sığorta müqaviləsinə görə sığorta hadisəsi hesab edilməməsi;
21.1.4. sığortalı, və ya faydalanan şəxsin zərərin əvəzini tam olaraq zərər dəyməsində təqsirli olan şəxsdən alması; zərərvuran zərərin əvəzini qismən ödəmiş olduqda sığorta ödənişindən ödənilmiş məbləğ həcmində imtina edilir
21.1.5. sığorta hadisəsinin sığorta haqqı və ya onun hər hansı bir hissəsinin qanunvericilikdə və ya müqavilədə nəzərdə tutulmuş ödənilməsi müddəti başa çatdıqdan 15 (on beş) gün sonra, bu qaydaların 6.5.1-ci maddəsində nəzərdə tutulmuş halda isə sığortaçının müəyyən etdiyi müddətin başa çatmasından 3 (üç) gün sonra baş verməsi halında sığorta haqqı və ya onun müvafiq hissəsi ödənilməmiş olduqda;
21.1.6. müqavilə və ya qanunla hərbi risklərin sığortalanması nəzərdə tutulmadıqda, hadisənin baş verməsinin hərbi əməliyyatlar və ya hərbi xarakterli tədbirlər hesab edilən halların nəticəsi olması;
21.1.7. Mövcud qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda.

**22. Subroqasiya hüququ**
22.1. Subroqasiya hüququ sığorta ödənişi almış şəxsin ona dəymiş zərərə görə məsuliyyət daşıyan üçüncü şəxsə qarşı malik olduğu hüquqlardan və vasitələrdən həmin ödənişi vermiş sığortaçının istifadə etmək hüququdur.
22.2. Faydalanan şəxsin zərərvuran şəxsə qarşı zərərin əvəzini ödəmək tələbi (iddiası) ilə bağlı hüquq əmlak sığortası üzrə sığorta ödənişini vermiş sığortaçıya subroqasiya qaydasında onun verdiyi sığorta ödənişi məbləğində keçir.
22.3. Faydalanan şəxs sığorta ödənişini aldıqda, subroqasiya hüququnun həyata keçirilməsi üçün özündə olan bütün lazımi sənədlərlə sığortaçını təmin etməlidir.

22.4. Faydalanan şəxs zərərvuran şəxsə qarşı iddiadan və ya tələbi təmin edən hüquqlardan, yaxud lazımı sənədləri sığortaçıya verməkdən imtina etdikdə, sığortaçı sığorta ödənişi verməkdən zərərvuran şəxsdən subroqasiya qaydasında ala biləcəyi məbləğ həcmində azad edilir.
22.5. Sığortaçı subroqasiya hüququndan zərərvuran şəxsin özünə və (və ya) müvafiq sığorta hadisəsi ilə bağlı risklər üzrə həmin şəxsin məsuliyyətini sığortalamış sığortaçıya, həmçinin qanunvericiliyə əsasən, dəyən zərərə görə sığortalı və ya faydalanan şəxs qarşısında maddi məsuliyyət daşıya bilən digər şəxsə qarşı istifadə edə bilər.

**23. Tərəflərin məsuliyyəti**
23.1. Bu Qaydaların şərtlərinin yerinə yetirilməməsinə yə ya lazımı qaydada yerinə yetirilməməsinə görə tərəflər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

**24. İş sirlərinin gizli saxlanılması**
24.1. Sığortaçı, Sığortalıya aid öyrəndiyi və ya iş prosesində öyrənəcəyi iş sirlərini gizli saxlamadığı halda Sığoratalıya dəyən maddi və ya mənəvi zərərə görə qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır
**25. Mübahisələrin həlli qaydası**
25.1. Bu Qaydalara əsasən bağlanmış sığorta müqaviləsindən irəli gələn bütün mübahisələr ilkin olaraq danışıqlar yolu ilə pretenziya qaydasında, tərəflər arasında razılığa gəlinmədiyi təqdirdə isə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq məhkəmələr vasitəsilə həll edilir.

**26. Xüsusi şərtlər**
26.1. Sığorta müqaviləsində bu Qaydalara və qüvvədə olan qanunvericiliyə zidd olmayan xüsusi şərtlər müəyyən oluna bilər. Sığortalı tərəfindən bu xüsusi şərtlərin yerinə yetirilməməsi Sığortaçının ödəniş verməkdən imtina etməsi üçün əsasdır.

**27. Sığorta tarifi və onun iqtisadi əsaslandırılması**
Tarif dərəcələri əsaslandırılarkən, əvvəlcə netto-dərəcələr hesablanır. Netto dərəcələrin hesablanmasında aşağıdakı məlumatlardan istifadə edilir:

1) Sığorta hadisəsinin baş vermə ehtimalı (q) - 0,01;
2) Bir sığorta müqaviləsi üzrə orta sığorta məbləği (So) -450000 manat;
3) Bir sığorta hadisəsi üzrə orta sığorta ödənişi (Sö) - 4500 manat;
4) Bağlanılacaq sığorta müqaviləsinin sayı(n)-1.

Tn, Tə və Tr ilə müvafiq olaraq netto-dərəcəni, onun əsas hissəsini və risk öhdəliyini işarə edək. Netto-dərəcənin əsas hissəsi 100 manat sığorta məbləğinə uyğun olaraq aşağıdakı düsturla hesablanır:

$$Tə=100qSö/So=100*0,01*4500/450000=0,01 \text{ manat}$$

Risk öhdəliyini hesablamaq üçün təminat ehtimalını 0,98 götürək. Bu halda həmin ehtimala uyğun əmsal a=2 olur. Risk öhdəliyi aşağıdakı düsturla hesablanır:

$$Tr=1.2*Tə*a*((1-q)/(nq))^{1/2}=1.2*0,01*2*((1-0,01)/(1*0,01))^{1/2}= 0,24 \text{ manat}$$

$$Tn=Tr+Tə=0,24+0,01=0,25$$

Tarif dərəcəsinin strukturu: netto-dərəcə - 70%, yüklənmə -30 %.
Brutto-dərəcəni Tb ilə işarə edək. Onda bruto-dərəcənin hesablanması düsturuna əsasən:

$$Tb=Tn/(1-f)=0,21/(1-0,3)=0,35 \text{ manat.}$$

Tarif dərəcəsi sığorta predmetinin fiziki xüsusiyyətləri, istismar şəraitləri, sığorta ərazisi əraziyə düşən yağıntının miqdarı, iqlim və s. amillərdən asılı olaraq diferensiallaşdırılır. Ona görə də yekun tarif dərəcəsi, 0,9 %-3 %, yalnız zəlzələ hadisəsi ilə əlaqədar tarif dərəcəsi isə 0,125 %-0,3 % aralığında dəyişir.